# Media və ictimaiyyət: vəzifələr, çağırışlar...

## Sözün təsir gücü və məsuliyyətinə həsr olunan konfransdan qeydlər

**Noyabrın 16-da Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşkilatçılığı ilə "Söz azadlığı və cəmiyyətin informasiya təhlükəsizliyi" mövzusunda Quba şəhərində çox sayda media və QHT nümayəndələrinin iştirakı ilə işgüzar konfrans keçirilib. Konfransa dəvətli olan "Xalq qəzeti"nin əməkdaşının tədbir barədə qeyd və təəssüratlarını oxuculara təqdim edirik.**

...Bakıdan şimala doğru gedən yolda Siyəzəndən başlayaraq, bizi çiskin və yağışlı hava müşayiət etdi. Saat 10 radələrində Quba şəhərinə daxil olanda, artıq səmadan payız Günəşi boylanırdı. Tədbirin keçiriləcəyi Heydər Əliyev Muzeyinin qarşısında qonaqları səmimiyyətlə qarşılayan hər kəsin üzündə xoş təbəssüm vardı. Çoxdankı tanışım, Quba Rayon Ağsaqqallar Şurasının sədri İldırım Məmmədov da burada idi və tədbirə qatılmağından dərin məmnunluq hissi keçirdiyini bildirdi. Ağsaqqal fikrini belə izah etdi:

– Konfransın mövzusu mənim də ürəyimcədir. Çünki bu gün dünyada siz jurnalistlərin informasiya adlandırdıqları söz ən ağır silahlardan da güclüdür və ən keçilməz görünən sərhədləri belə bir göz qırpımında yararaq milyonların həyat və baxışlarına ciddi təsir göstərir. Qarabağdakı tarixi zəfərimiz düşmənlərimizin gözünə batır. Sözümüzün yerini və məqamını bilməliyik. Dövlətimizin daha güclü və qüdrətli olmağını istəyiriksə, bu vacib məsələyə diqqəti artırmalıyıq.

Bir gün əvvəl Baş Prokurorluğun Mətbuat Xidmətindən konfransın məqsədi barədə məlumat verərkən demişdilər ki, Azərbaycan dövləti, eləcə də Baş Prokurorluq ölkə konstitusiyasında təsbit olunan söz azadlığı və informasiya təhlükəziliyinin çağdaş dönəmdə milli dövlətçilik quruculuğunda böyük önəm kəsb etdiyinin fərqindədir və bu mövzuda Qubadan əvvəl Gəncə, Şəki, Siyəzən və Şabran kimi şəhər və rayonlarda silsilə tədbirlər keçirilib.

Tezliklə tədbir başlandı. İştirakçılar əvvəlcə ümummilli lider Heydər Əliyevin möhtəşəm abidəsini ziyarət edərək, önünə gül dəstələri düzdülər. Sonra konfrans iştirakçıları Heydər Əliyev Muzeyinin yüksək zövqlə dizayn edilmiş bir-birindən gözəl salonlardakı ulu öndərin həyat və fəaliyyəti ilə bağlı zəngin eksponatlarla tanış oldular.



Dövlət himni səsləndirildikdən sonra Vətən uğrunda canlarından keçmiş bütün şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olundu, yaralılara Allahdan şəfa diləndi. Tədbirdə açılış nitqi ilə çıxış edən Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi Natiq Abdullayev cəmiyyətin informasiya təhlükəsizliyinin təmin olunması məqsədilə prokurorluq orqanları tərəfindən həyata keçirilən kompleks tədbirlərdən geniş söz açdı.

Quba Rayon İcra Hakimiyyətinin başçısı Ziyəddin Əliyev öz növbəsində belə bir mötəbər tədbirin Quba şəhərində təşkil edilməsindən məmnunluğunu ifadə etdi. Quba rayon prokuroru Namiq Muradov təşkil olunmuş işgüzar konfransın əhəmiyyətindən bəhs edərək media və qeyri-hökumət təşkilatları ilə kommunikasiyanın gücləndirilməsi məqsədilə görülən işlərdən danışdı.

Tədbirdə çıxış edən Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov prokurorluq orqanlarının media siyasətində aşkarlıq, şəffaflıq və hesabatlılıq prinsiplərini rəhbər tutmasından, vətəndaş məmnunluğunun təmin olunması məqsədilə qurumun sosial media fəaliyyətinin gücləndirilməsi istiqamətində görülən işlərdən bəhs etdi.

Tədbir zamanı dövlət qurumlarının sözçüləri, o cümlədən qeyri-hökumət təşkilatlarının nümayəndələri konfransın əsas mövzusu və burada səsləndirilən təklif və təşəbbüslər barədə də çıxışlar etdilər. Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparıldı.

Konfrans, həqiqətən, çox işgüzar və kreativ ruhda keçdi. Məruzə və çıxışlarda belə bir məqam dəfələrlə vurğulandı ki, iki il əvvəl 44 günlük müharibədə düşmən üzərində əldə etdiyimiz parlaq qələbə ölkə ictimaiyyətinin bütün təbəqələrində böyük ruh yüksəkliyi yaradıb. Qubalılar da bu gün bütün sahələrdə həvəslə qurub-yaradır, gələcəyə daha böyük ümidlərlə baxırlar. Bu gün vətəndaşlarımızın, ziyalıların informasiya təhlükəsizliyi məsələsinə ciddi önəm vermələri, ilk növbədə, məhz xalqın və dövlətin gələcəyinə dərin inam və məsuliyyət hissindən qaynaqlanır.

Tədbir başa çatandan sonra iştirakçılar Qubada bu ilin yazında yaradılmış Media Şəhidləri Parkını ziyarət etdilər. Quba Rayon İcra Hakimiyyəti başçısının humanitar məsələlər üzrə müavini Səidə Abbasova məlumat verərək dedi ki, bir müddət əvvəl burada 2021-ci ildə Kəlbəcərdə mina partlaması nəticəsində şəhid olan AZƏRTAC-ın əməkdaşı Məhərrəm İbrahimovun xatirəsi anılıb. Şəhid jurnalistin 40 yaşının tamam olması münasibətilə keçirilən həmin tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, şəhid ailələri və media təmsilçiləri, eləcə də Məhərrəm İbrahimovun ailə üzvləri iştirak ediblər. Məhərrəm İbrahimovun şərəfli ömür yolu və jurnalistika fəaliyyəti barədə ətraflı məlumat verilib. Jurnalistin oğlu Uğur İbrahimov atasına həsr olunan şeri səsləndirib.

Səidə xanım sonra etiraf etdi ki, iştirakçıların çoxu kimi, o da, Uğurun şeirini dinləyəndə kövrəlib, göz yaşlarını güclə saxlayıb: "Bəli, biz bu qələbəni igid şəhidlərimizin canı-qanı hesabına qazanmışıq. Şəhidlərimizin arasında Çingiz Mustafayev, Alı Mustafayev, Məhərrəm İbrahimov və başqa qorxubilməz jurnalistlərimiz də olub ki, onlarla haqlı olaraq fəxr edirik".

Media Şəhidləri Parkında köhnə dostum, tanınmış şair Ramiz Qusarçaylı ilə görüşümə də çox sevindim. Söhbət Qubanın mətbuat ənənələrindən düşəndə həmsöhbətim onu da dedi ki, qubalılar belə bir faktdan fəxarət hissi keçirirlər ki, xalqımızın böyük mütəfəkkirləri Abbasqulu ağa Bakıxanovun, ilk milli qəzetimiz olan "Əkinçi"nin naşiri və baş redaktoru Həsən bəy Zərdabinin həyat fəaliyyətləri Quba ilə sıx bağlı olub.

Belə ki, Abbasqulu ağanın uşaqlıq illəri Qubanın qədim yaşayış məntəqələrindən biri olan Amsar kəndində keçib, Həsən bəy isə məhkəmə vəkili kimi əmək fəaliyyətinə məhz Qubada başlayıb. Yeri gəlmişkən, rayondakı ən abad qəsəbələrdən biri Zərdabinin adını daşıyır. Bir neçə il bundan əvvəl isə burada Zərdabi adına park və istirahət guşəsi yaradılıb. Ötən il parkda böyük maarifçinin heykəli də ucaldılıb.

**Məsaim ABDULLAYEV,**
**"Xalq qəzeti"**